*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 5, 2025*
*Səh. 526-532*

https://doi.org/10.62837/2025.5.526

**TAĞIYEVA AYTƏN**
*Kiçik elmi işçi*
*AMEA Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutu*
*Bakı ş. H.Cavid.*
*e-mail: ayten.reshidli@gmail.com*

# ORXAN PAMUK YARADICILIĞINDA SIYASI MƏSƏLƏLƏRIN POSTMODERN IFADƏSI

Görkəmli yazıçı Orxan Pamuk "Qar", "Mənim adım qırmızdır", "Vəba gecələri" romanlarında siyasi məsələləri postmodern üslubda qələmə almışdır. Beləliklə, müasir Türkiyə cəmiyyətində idealoji parçalanmaları, dini problemləri, ölkədə olan siyasi qruplaşmaların şəxsiyyətə təsiri məsələlərini, Şərq-Qərb qarşıdurmasını romanlarında uğurla qələmə ala bilmişdir. Yazıçı "Qar" romanında ölkənin siyasi problemlərini əsasən üç istiqamətdə göstərməyə çalışmışdır. Bu üç istiqamətdə xarakterlərin də idealogiyası verilmişdir. Onlar islamçılar, dövlətin din üzərində nəzarətini ələ alan insanlar və solçulardır (müxalifət). Əsərdə tək bir həqiqət yoxdur. Yazıçı məsələyə konkrtet münasibət bildirmir. Problemlərə polifonik münasibət postmodernizmin əsas xüsusiyyətlərindən biridir. Romanda 80-90-cı illərdə Türkiyədə baş vermiş siyasi hadisələr dekonstruksiyaya məruz qalır. Pamuk təmizliyin, unutqanlığın və yaddaşın simvolu kimi qələmə aldığı qarı baş vermiş hadisələrin üzərini örtən pərdə kimi göstərmişdir. Yazıçının ifadə etdiyi qarşıq, xaotik siyasi məsələlər simvollar, polifonik obrazlar postmodernizmə xas olan xüsusiyyətlərdən biridir. Orxan Pamuk "Mənim adım qırmızıdır" romanında isə milli kimlik, Qərb təsirlərinə qarşı mübarizə məsələsini ön plana çəkmişdir. Nəhayət, pandemiya dövründə çap olunan "Vəba gecələri" romanında isə vəba xəstəliyi fonunda demokratiya və avtoritarizm problemini açıq şəkildə tənqid etmişdir.

**Açar sözlər:** Orxan Pamuk, roman, postmodernizm, siyasi roman

## Giriş

Nobel mükafatına layiq görülmüş postmodern türk yazıçısı Orxan Pamuk romanlarında siyasi məsələlərə tez-tez toxunmuşdur. Əsasən Şərq-Qərb problemlərini romanlarının əsas ideyasına çevirən yazıçı Osmanlı imperiyasının parçalanması, modernləşmə, türk xalqının kimlik problemi, din kimi bir çox politik mövzuları qələmə almışdır. Yazıçı "Qar" əsərini "İlk və son siyasi roman"ı olduğunu etiraf etsə də [7, s.4], o demək olar ki, bütün romanlarında, xüsusilə, "Mənim adım qırmızıdır" [5] və "Vəba gecələri" [3] əsərlərində siyasi problemlərə toxunmuşdur. Adı çəkilən romanların postmodern üslubda yazılması imkan verir ki,

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 5, 2025*
*Səh.526-532*

yazıçı polifonik və mətinlərarası əlaqələrlə siyasi məsələləri həm üstüörtülü, həm də açıq şəkildə oxucusuna çatdırsın.

**Əsas mətn**

Orxan Pamuk "Qar" romanını fərqli yaradıcılıq üslubu ilə yazmışdır. Əsəri oxuyan oxucuya bir daha aydın olur ki, dünyanı, insanları, ətrafda baş verən siyasi prosseslərі və s. tam anlamaq qeyri-mümkündür. Pamuk uzun illər ərzində baş verən siyasi hadisələri 428 səhifəyə sığdıraraq irihəcimli roman yazmışdır. Əsərdə zaman anlayışının itməsi və hadisələrin iç-içə verilməsi postmodern yazı üslubuna məxsus xüsusiyyətdir. Yazıçı 1980-90-cı illərdə baş vermiş Türkiyənin demək olar ki bütün siyasi məsələrinə həm üstüörtülü, həm də açıq şəkildə toxunmuşdur.

Əsərdə hadisələr Qars ərazisində baş verir. Qars sanki Türkiyənin kiçildilmiş maketidir. Türkiyədə siyasi roman üçün seçilə biləcək ən uğurlu məkandır. Əvvəlcə onu qeyd etmək lazımdır ki, Qars Türkiyənin ən qədim vilayətlərindən biridir. Qars Şərqi Anadolu bölgəsinin şimal-şərqində yerləşir. Ərazi tarix boyu dəfələrlə baş vermiş Rus-Türk müharibələrində əldən-ələ keçmişdir. Hətta qısa müddət ingilislərin və ermənilərin əsarəti altında olmuşdur. Bu günə qədər də ermənilərin həmin ərazi ilə bağlı iddiaları vardır. Rusların Qara dənizə ordan da, Aralıq dənizinə çıxış, türklərin isə Sovetlər Birliyinə bağlanış nöqtəsi kimi bu şəhərin özünəməxsus taleyi var. Qars özündə Şərq və Qərb mədəniyyətlərini birləşdirir. Bu şəhər müxtəlif etnik qurupların: türklərin, kürdlərin, azərbaycanlıların, ermənilərin və s. yaşadığı məkandır. Onu da qeyd etmək lazımdır ki, Qars şəhəri Çar Rusiyasının dövründə yenidən qurulmuş və burada qədim rus binaları tikilmişdir. Yazıçı roman boyunca qədimi rus binalarından çox geniş söz açmışdır. Ruslar ənənəvi siyasətlərini burada davam etdirmiş, ermənilərin burada yaşamağına, hətta öz torpaqları kimi burada kök salmaqlarına hər cür şərait yaratmışdır. Ona görə də, yazıçı tez-tez boş qalmış erməni, rus evlərindən, tikililərindən bəhs edir. [7, s.17, 57, 164]

Orxan Pamuk "Qar" romanı ilə Türkiyənin bir çox siyasi problemlərini qələmə almışdır. Oxucunu qarlı Qars küçələrində gəzdirən Pamukun əsəri siyasi olduğundan oxucular tərəfindən birmənalı qarşılanmamışdır.

Romanda oxucu İran islamçılarının, kürd dindarlarının islamçı təşkilatının, kürd komunist təşkilatının və s. siyası qurumların bir-biri ilə çirkin mübarizə apardığının, iqtidarın isə bunların hər biri ilə ayrı-ayrı haqq-hesab çəkdiyinin şahidi olur. Ancaq təəssüf doğuran səbəb budur ki, xalqını dərindən sevib, onun dərdinə çarə axtararaq çarəsizləşən türk oğulları-Lacivərt, Nəcib və s. ölümə məhkum olurlar, bir-birlərinin qatilinə çevrilirlər. Qarsda İran İslamçı təşkilatının rəhbərlərindən olan Lacivərtin Ka ilə ilk görüşü maraqlı dialoqlarla yadda qalmışdır. Siyasi qəhrəman Kaya Firdovsinin "Şahnamə" əsərində olan Rüstəm və Zöhrabın hekayəsini dərin duyğularla nəql edərkən [7, s.79-82] öz taleyinin də Zöhrabınkı kimi acınacaqlı bitəcəyindən xəbərsiz idi. Əslində Orxan Pamuk bu hekayənin vasitəsi ilə xalqın baş verən hadisələrdə nə

qədər günahsız olduğunu göstərməyə çalışmışdır. Oxucuya aydın olur ki, atanı oğula, qardaşı qardaşa qırdıran qüvvələr xaricdən idarə olunur, günahsız xalq isə baş verən siyasi oyunlardan xəbərsizdir.

Əsərin əsas qəhrəmanı Kanın Qarsa gəlişi diqqəti tez cəlb edir. Özünü daxilən türk hesab edən, ancaq qiyafəsindən bir avropalı olduğu hiss olunan bu adamın intihar edən qızları araşdırması siyasi təşkilatların nəzərindən qaçmır. [7, s.9, 38] Dövlət qəzeti tərəfindən göndərilsə də əsilində siyasətdən baş çıxarmayan Ka tez bir zamanda siyasi dairələrin əlində oyuncağa çevrilir. Tək arzusu İpəklə evlənib Frankfurta qayıtmaq və ömrünün sonuna kimi xoşbəxt yaşamaq olsa da, qəhrəmanımız siyasi oyunlara qarışdığı üçün arzusuna çata bilmir, şəhəri tək tərk etməli olur. Qarsda yazdığı şeirlərini çapa hazırladığı bir dövrdə isə sui-qəsd nəticəsində öldürülür.

Əsərdə oxucunun diqqətini çəkən məqamlardan biri də Kanın daxilində yaranan kimlik axtarışıdır. Almaniyada yaşayan Kanın dinə ateist münasibəti əsər boyunca dəyişikliyə məruz qalır və əsərin müəyyən hissəsindən sonra dinə, mistikaya inamı artır. Sanki, mədəniyyətlərarası böhran yaşayan qəhrəman daxili boşluğunu doldurmağa çalışır. Əsərin digər qəhrəmanı İpəyə olan sevgisi və siyasi məsələrin içində burulğana düşən Ka bu mübarizədən qalib çıxa bilmir. Bütün bu məsələlərin içərisində oxucu Kanın şəxsiyyətini tam anlaya bilmir.

Əsərdə baş verən bəzi siyasi məslələr azərbaycanlı oxucunu düşündürməyə vadar edir. Çünki, Qars və Qarabağın ortaq "erməni" problemi vardır. Qars və Qarabağ ərazi olaraq hər ikisi Ermənistanla sərhəddə yerləşir. Qarabağ Müharibəsindən sonra, Türkiyə Ermənistanla sərhəddi bağlamış, ölkə ilə əlaqəni tamamilə kəsmişdir. Çünki, bütün tarixi mənbələr həmin ərazilərin qədim türk torpağı olduğunu sübut etsə də, ermənilər və ruslar daim həmin torpaqların iddiasında olmuş, ilk fürsətdə işğal etmiş, soyqırım törətmişdir. Yazıçı əsərdə məkan olaraq yalnız Qarsı seçsə də, ermənilərin iddiasında olduğu torpaqlar qədim Anadolu ərazisidir. Uzun müharibələrdən sonra əldən-ələ keçmiş Qars sanki dövlətin nəzərindən kənarda qalmışdır. Əhalisi yoxsul, təhsilin səviyyəsi çox aşağıdır. Çayxanalar axşama kimi işsiz insanlarla doludur. Hər kəs evinə çörəkpulunu hansı yolla qazanıb aparacağı barədə baş sındırır. Elə bu səbəbdən də şəhərdə əslində kənardan məharətlə idarə olunan bir çox siyasi qruplar rahat fəaliyyət göstərə bilirlər. Burada insanlar özləri də hiss etmədən hansısa təşkilatın oyuncağına çevrilə bilir, qardaş qardaşa qəsd edir. Əsərdə cərəyan edən həmin siyasi vəziyyət 90-cı illərin əvvəllərində Azərbaycanda baş verən hadisələri xatırladır. Həmin illərdə yenicə müstəqillik əldə edən, ordusu qurulmamış ölkəmizə kənardan edilən müdaxilələr xalqı yanlış istiqamətlərə yönəltmiş və yaranmış qarışıq vəziyyətdən istifadə edən Ermənistan və Rusiyanın birgə siyasəti nəticəsində Qarabağ işğal olunmuşdur.

1878-ci ildə Osmanlı-Rus müharibəsinin nəticəsi olaraq Qars ruslara təhvil verildi. Çar Rusiyası devrilənə qədər onun tərkibində daha sonra qısa müddət Böyük

Britanıyanın idarəsinə keçmiş, onlar isə ərazini ermənilərə təhvil vermişlər. Təqribən bir ilə qədər erməni əsarətində olan əraziyə hələ Çar Rusiyasının dövründən ermənilər köçmüş, yaşamışdır. 1920-ci ildə imzalanmış Gümrü müqaviləsi ilə torpaqlar yenidən əzəli sahibinə qayıtmışdır. Orhan Pamukun "Qar" romanında bəhs etdiyi boş qalmış erməni evləri 1990-cı illər Qarabağ məsələsindən sonra Ermənistanla sərhədləri bağlayan Türkiyə ərazisində yaşamaq istəməyən ermənilərin evləridir. Hansı ki, Qars ərazisindən qaçmış ermənilərin bir çoxu sonralar Qondarma Dağlıq Qarabağ Respublikasına köçürülmüşdür. Türkiyənin kiçik bir maketi olan Qarsda baş verən hadisələr yalnız postmoderin roman vasitəsi ilə açıla və ya oxucuya təqdim oluna bilərdi. Çünki, postmodern romanın bədii əsnəkliyi imkan verir ki, iç-içə verilmiş hadisələr zamandan və məkandan aslı olmayaraq oxucuya təqdim olunsun.

Yazıçının digər siyasi məsələlərə üstüörtülü toxunduğu roman isə "Mənim adım qırmızıdır" əsəridir. Orxan Pamuk əsərin girişində müqəddəs kitab "Qurani Kərim"in Bəqərə surəsindən belə bir cümlə vermişdir: "Şərq və Qərb Allahındır." [5, Giriş] Bəşəri problemə çevrilən Şərq-Qərb qarşıdurması əsərin əsas ideyasını təşkil edir. Şərq aləminin Qərbin yaratdığı yeniliklərə birmənalı olaraq mənfi münasibət bəsləməsi, dinin təsiri ilə qəliblərdən çıxa bilməməsini oxucularına çatdırmağa çalışan Orxan Pamuk bu idealogiyaların sintezindən mükəmməl, unikal bir cəmiyyət qurula biləcəyinə işarə verir. Ancaq təəssüf ki, bu müşkül məsələdir. Əsərdə Şərq minyatür sənətindən və Osmanlı dövründə bu sənətə verilən diqqətdən söhbət gedir. Osmanlı sarayının ustaları bir-birindən mükəmməl əsərlər ərsəyə gətirməkdən ötrü az qala "yarışa" girirlər. Ustalara rəhbərlik edən Əniştə əfəndi və onun şəyirdi Zərif usta öldürülür. Bunun başlıca səbəbi isə usta və şəyirdinin Qərbin təsiri altında yeni minyatür numunələri yaratmaqları idi.

Beləliklə, Orxan Pamuk eyni ilə "Qar" əsərində olduğu kimi "Mənim adım qırmızıdır" romanında da radikal islamçıların cəmiyyəti necə geridə qoyduğunu bir daha göstərməyə çalışır. Yazıçının seçdiyi məkan XVI əsr Osmanlı sarayı olsa da bu problemlər çağdaş dövr Şərq dünyası üçün hələ də aktualdır. Pamuk modernləşmə prossesinin Şərq cəmiyyəti üçün necə ağrılı, çətin məsələ olduğunu oxucusuna çatdırır. Bu siyasi prosses nəinki Şərqlə Qərbin ortasında yerləşən Türkiyə, eləcə də Azərbaycan cəmiyyəti üçün tanışdır. Yazıçı Şərqdə qadın olmaq məsələsinə də həssaslıqla toxunur. Bunun necə çətin olduğunu oxucusuna göstərməyə çalışır. Hətta Şərqlə Qərbin birliyinə münasibətini qadının dilindən belə bir şeirlə çatdırmağa çalışır:

*Qərarsız qəlbim deyir ki, Şərqdə ikən Qərbdə,*
*Qərbdə ikən Şərqdə olmaq istəyirəm.*
*Kişiyəmsə qadın, qadınamsa kişi olmaq istəyirəm,*
*deyir başqa tərəfdən.*
*Nə çətinmiş insan olmaq, daha çətini insan kimi bir həyat.*

*Həm qarşımda, həm arxamda, həm Şərqimlə, həm Qərbimlə,*
*Zövq almaq istiyirəm.* [5, s.403]

Patrialxal cəmiyyətdə qadının arxa planda olması məsələsinə toxunan yazıçı Şərq qadının yalnız ailə qayğıları ilə deyil, cəmiyyətdə də aktiv olmasını istəyir.

Pamukun pandemiya dövründə çap etdirdiyi "Vəba gecələri" romanı da siyasi məsələləri özündə əks etdirir. Əsər postmodern tarixi roman olduğundan tarixi hadisələr dekonstruksiya olunmuşdur. Vəba xəstəliyinin yayıldığı Minger adası yazıçı təxəyyülü ilə yaradılmış məkandır və əslində isə mövcud olmamışdır. XIX əsrin sonu XX əsrin əvvəllərində bütün dünyada yayılan vəba xəstəliyi bir çox yerlərdə karantin rejiminin yaranmasına səbəb olmuşdur. Əsərdə vəba xəstəliyinin fonunda Osmanlı imperiyasının qeyri-sabitliyi və siyasi oyunları V Muradın taxtan endirilməsi hadisəsi verilmişdir.

Osmanlı hökümdarları V Murad və ll Əbdülhəmid obrazları metaforik məhiyyət daşıyır. Əsərdə V Murad islahatçı və liberal düşüncəli bir lideri kimi göstərilmiş, II Əbdülhəmid isə sərt və avtoritar idarəçiliyin simvoludur. Baş verən siyasi oyunların içərisində V Murad zəif və gücsüz görülsə də, II Əbdülhəmid sərt idarəçilik rejimi ilə müxalifəti yatırdır. Ancaq, yazıçı əsərdə Minger adasının Osmanlıdan qopması hadisəsini II Əbdülhəmid rejiminin uğursuzluğu kimi göstərir.

Əsərdə ədzaçı Misyö Corc obrazı vardır ki, əslən kiprlidir. Çox maraqlıdır ki, romanda bəzi həqiqətlər onun dili ilə oxucuya çatdırılır: "*... siz də bilirsiniz ki, Əbdülhəmid Kipr, Girit kimi, bu adanı da çoxtan gözdən çıxardıb*" [3, s.273] (Söhbət Minger adasından gedir.). Bu fikirlərin ardınca Osmanlının Minger adasına təyin etdiyi nümayəndə Vəli Paşanın ağlına Namiq Kamalın "Vətən və yaxud Silistrə" teatrı düşür. Bu əsər Türkiyədə vətən mövzusunda yaradılmış ən güclü teatr tamaşasıdır. Romanda tamaşanın qəhrəmanı İslam bəyin dilindən səslənən sözlərə istinad olunur. *"Dövlətin, qalalarını, adalarını, məmləkət və vilayətlərini itirə-itirə geri çəkilməsi yüz əlli ildir davam edir."* [3, s.273] Bu Türkiyə tarixi üçün ən faciəvi vəziyyətin sözlə ifadəsidir.

**Nəticə**

Beləliklə, tədqiqat işindən də göründüyü kimi, Orxan Pamuk "Qar", "Mənim adım qırmızıdır", "Vəba gecələri" romanlarında bir çox siyasi məsələlərə toxunmuşdur. Yaradıcılığı boyunca Şərq və Qərb dünyasının problemlərini qələmə alan yazıçı, bu iki idealogiyanın mərkəzində yerləşən Türkiyəni romanlarının əsas obyektinə çevirmişdir. Çünki, Türkiyə bunun üçün ən ideal məkandır. Pamuk Şərq və Qərb qarşıdurmasının arxa planında isə Türkiyənin demək olar ki, bütün siyasi problemlərinə toxunmuşdur. Məhz buna görə də, yazıçının yaradıcılığına münasibət birmənalı deyildir.

**Ədəbiyyat siyahısı**

1. Frans Kafka, “Məhkəmə”, Qanun nəşriyyatı, Bakı, 2013, s.316
2. Frans Kafka, Seçilmiş əsərləri. Bakı, “Şərq-Qərb”, 2006, s.360
3. Orhan Pamuk “Veba Geceleri”, Yapı kredi yayınları, s.537
4. Orhan Pamuk, “Öteki rengler”, İstanbul, Yapı Kredi Yayınları, 2014
5. Orhan Pamuk, “Benim adım Kırmızıdır”,İstanbul, İletişim yayınları, 1998, 470 s.
6. Orxan Pamuk, “Atamın bavulu”, Qanun nəşriyyatı, Bakı, 2013, s.100
7. Orxan Pamuk, Kar, İletişim Yayınları, İstanbul, 2002, s.436
8. Türkiyənin Böyük İl Ensiklopediyası. 2-ci cild. İstanbul, 1989.

**Тагиева Айтан**

## ПОСТМОДЕРНИСТСКОЕ ВЫРАЖЕНИЕ ПОЛИТИЧЕСКИХ ВОПРОСОВ В ТВОРЧЕСТВЕ ОРХАНА ПАМУКА

Знаменитый писатель Орхан Памук в своих романах «Снег», «Моё имя Красный» и «Чумные ночи» поднимает политические вопросы в постмодернистском стиле. Таким образом, он успешно отражает идеологические расколы, религиозные проблемы, влияние политических группировок на личность и противостояние Востока и Запада в современном турецком обществе. В романе «Снег» писатель стремится представить политические проблемы страны через три основные идеологические позиции. Это исламисты, люди, захватившие контроль над религией, и социалисты (оппозиция). В произведении нет единой истины, писатель не высказывает конкретного отношения к проблемам. Постмодернистский принцип полифоничности, отражающий множество взглядов на одну проблему, является одной из ключевых особенностей романа. Политические события, происходившие в Турции в 80-90-е годы, подвергаются деконструкции. Памук изображает снег как символ чистоты, забвения и памяти, рассматривая его как покрывало, скрывающее события. Противоречивые, хаотичные политические вопросы, символы и полифоничные образы, использованные автором, также являются характерными для постмодернизма. В романе «Моё имя Красный» Орхан Памук ставит на первый план вопросы национальной идентичности и борьбы с западными влияниями. Наконец, в романе «Чумные ночи» (2021), опубликованном в эпоху пандемии, он открыто критикует проблемы демократии и авторитаризма на фоне эпидемии чумы.

**Ключевые слова:** *Орхан Памук, роман, постмодернизм, политический роман*

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 5, 2025*
*Səh. 526-532*

**TAGIYEVA AYTAN**

## POSTMODERN EXPRESSION OF POLITICAL ISSUES IN ORHAN PAMUK'S WORK

The prominent writer Orhan Pamuk has addressed political issues in a postmodern style in his novels *Snow*, *My Name is Red*, and *Nights of Plague*. Through these works, he successfully portrays ideological divisions in modern Turkish society, religious conflicts, the influence of political factions on individuals, and the East-West confrontation.

In *Snow*, Pamuk presents Turkey's political problems in three main directions, each represented by distinct ideological characters: Islamists, those who support state control over religion, and leftists (the opposition). There is no single truth in the novel; the author does not take a definite stance. Instead, the problems are presented through a polyphonic perspective, which is one of the key features of postmodernism. The political events of the 1980s and 1990s in Turkey are subjected to deconstruction in the novel. Pamuk uses snow as a symbol of purity, forgetfulness, and memory, portraying it as a veil that covers past events. The chaotic and complex political issues in the novel, along with the use of symbols and polyphonic characters, reflect characteristics of postmodernism.

In *My Name is Red*, the author focuses on the themes of national identity and resistance to Western influences. Finally, in *Nights of Plague* (published during the pandemic in 2001), he openly critiques democracy and authoritarianism through the backdrop of a plague outbreak.

**Keywords:** *Orhan Pamuk, Snow, novel, postmodernism, political novel*

***Rəyçi:*** **F.ü.f.d. Dos, Osmanova Barat Rəhim qızı**